**Xarici ticarət əlaqələri haqqında**

2024-cü ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 156 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 100 ölkəyə məhsul ixrac olunmuş, 148 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-aprel aylarında ölkənin xarici ticarət dövriyyəsi 13978,2 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 8513,4 milyon dollarını və ya 60,9 faizini ölkədən ixrac olunmuş məhsulların, 5464,8 milyon dollarını (39,1 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 3048,6 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 14,5 faiz, real ifadədə 10,6 faiz, o cümlədən idxal 10,9 faiz, ixrac isə 10,4 faiz azalmışdır.

2024-cü ilin yanvar-aprel aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 22,5 faiz, real ifadədə 30,2 faiz azalaraq 920,0 milyon dollar təşkil etmişdir.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən ölkənin xarici ticarət dövriyyəsinin 22,3 faizi İtaliya, 14,9 faizi Türkiyə, 9,6 faizi Rusiya, 7,6 faizi Çin, 4,7 faizi İsrail, 4,3 faizi Hindistan, 4,0 faizi Almaniya, 2,2 faizi Avstraliya, 2,1 faizi Çexiya, hər biri 1,7 faiz olmaqla Rumıniya və Gürcüstan, 1,6 faizi Tailand, 1,5 faizi ABŞ, hər biri 1,4 faiz olmaqla Bolqarıstan və Yunanıstan, 1,3 faizi İran, hər biri 1,1 faiz olmaqla Ukrayna və Türkmənistan, hər biri 1,0 faiz olmaqla Belarus, Koreya və Fransa, hər biri 0,9 faiz olmaqla Tunis və Portuqaliya, 10,7 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.




İxracın 35,5 faizini İtaliyaya, 16,0 faizini Türkiyəyə, 7,7 faizini İsrailə, 6,3 faizini Hindistana, 4,0 faizini Rusiyaya, 3,7 faizini Almaniyaya, 3,3 faizini Çexiyaya, 2,7 faizini Rumıniyaya, 2,6 faizini Gürcüstana, 2,5 faizini Tailanda, 2,3 faizini Bolqarıstana, 2,1 faizini Yunanıstana, 1,5 faizini Tunisə, hər biri 1,4 faiz olmaqla Portuqaliya və Xorvatiyaya, 0,8 faizini Polşaya, 0,7 faizini Fransaya, hər biri 0,6 faiz olmaqla İndoneziya, Ukrayna və İspaniyaya, 0,4 faizini İsveçrəyə, 3,3 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (34,5 faiz), Türkiyəyə (22,3 faiz), Gürcüstana (8,7 faiz), İsveçrəyə (3,7 faiz), Ukraynaya (3,2 faiz), Türkmənistana (2,8 faiz), Qırğızıstana (2,3 faiz), ABŞ-a (1,8 faiz), Qazaxıstana (1,8 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,7 faiz), Belçikaya (1,7 faiz), Belarusa (1,3 faiz), İtaliyaya (1,3 faiz), Almaniyaya (1,1 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,9 faizi Çin, 18,0 faizi Rusiya, 13,3 faizi Türkiyə, 5,4 faizi Avstraliya, 4,5 faizi Almaniya, 3,6 faizi ABŞ, 3,3 faizi İran, 2,7 faizi İtaliya, 2,4 faizi Koreya, hər biri 2,3 faiz olmaqla Türkmənistan və Belarus, 1,9 faizi Ukrayna, 1,6 faizi Birləşmiş Krallıq, 1,5 faizi Yaponiya, hər biri 1,3 faiz olmaqla Fransa, Qazaxıstan və Hindistan, hər biri 0,8 faiz olmaqla Polşa, Vyetnam və Özbəkistan, 0,7 faizi İspaniya, 11,3 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

2024-cü ilin yanvar-aprel aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 18,2 faiz, təzə tərəvəz – 14,6 faiz, tütün – 3,6 dəfə,

meyvə və tərəvəz şirələri – 15,3 faiz, bitki yağları – 3,1 dəfə, marqarin, qida üçün yararlı digər qarışıqlar – 2,4 dəfə, pambıq lifi – 2,5 dəfə, mineral gübrələr – 63,5 faiz, sement klinkerləri – 10,8 faiz, qara metallardan çubuqlar – 14,7 faiz, bentonit gili – 11,4 faiz artmış, şəkər ixracı isə 43,2 faiz, meyvə və tərəvəz konservləri – 3,7 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 7,0 faiz, kartof – 12,4 faiz, çay – 8,4 faiz, polipropilen – 26,4 faiz, polietilen – 19,4 faiz, emal olunmamış alüminium – 46,1 faiz, pambıq ipliyi – 43,0 faiz, qara metallardan borular – 41,8 faiz azalmışdır.

2023-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 2024-cü ilin yanvar-aprel aylarında təzə meyvə idxalı 34,4 faiz, bitki yağları – 55,1 faiz, şokolad və şokolad məhsulları – 25,6 faiz, unlu qənnadı məmulatları – 20,4 faiz, kərə yağı, digər süd yağları və pastaları – 28,1 faiz, quş əti və onun əlavə məhsulları – 6,7 faiz, mal əti – 2,4 dəfə, təzə tərəvəz – 70,3 faiz, qara metallardan borular – 76,4 faiz, hesablama maşınları, blok və qurğuları – 32,0 faiz, yük avtomobilləri – 27,5 faiz, mineral gübrələr – 2,1 dəfə, qara metallardan çubuqlar – 24,3 faiz, mebellər – 80,2 faiz, məişət kondisionerləri – 2,5 dəfə, paltaryuyan maşınlar – 16,3 faiz, polipropilen – 37,7 faiz, avtobuslar – 38,2 faiz, məişət soyuducuları – 0,9 faiz artmış, buğda idxalı isə 34,8 faiz, xam şəkər – 41,4 faiz, kartof – 6,0 faiz, çay – 20,2 faiz, siqaretlər – 41,6 faiz, minik avtomobilləri – 9,4 faiz, dərman vasitələri – 16,5 faiz, polad prokatı – 10,2 faiz, rezin şinlər – 23,6 faiz, polietilen – 16,3 faiz, qara metallardan künclüklər – 2,4 faiz, sement – 3,4 faiz azalmışdır.

***Əlaqə telefonu: 377 10 70 (22-60)***